**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTU**

# POETİKA.İZM

**NİZAMİ GƏNCƏVİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNUN**

**ELMİ ƏSƏRLƏRİ**

**№ 1**

**"Elm və təhsil"**

**Bakı – 2019**

**Baş redaktor**

**İsa HƏBİBBƏYLİ**
AMEA-nın həqiqi üzvü

**Baş redaktorun müavini**
Tahirə Məmməd – filologiya üzrə elmlər doktoru, professor
**Məsul katib**
Maral Yaqubova – filologiya üzrə fəlsəfə doktoru
Məsul redaktor – Ülkər Hüseynova

**Redaksiya şurası:**
Teymur Kərimli – AMEA-nın müxbir üzvü
Bədirxan Əhmədov – filologiya üzrə elmlər doktoru, professor
Rəhilə Qeybullayeva – filologiya üzrə elmlər doktoru, professor
Məmməd Əliyev – filologiya üzrə elmlər doktoru, professor
Şirindil Alışanov – filologiya üzrə elmlər doktoru, professor
Vaqif Yusifli – filologiya üzrə elmlər doktoru
Mahirə Quliyeva – filologiya üzrə elmlər doktoru
Rahid Xəlilov – filologiya üzrə elmlər doktoru
Salidə Şərifova – filologiya üzrə elmlər doktoru
Pərvanə İsayeva – filologiya üzrə fəlsəfə doktoru, dosent
Elnarə Akimova – filologiya üzrə fəlsəfə doktoru

***Məsul redaktor:*** Ülkər Hüseynova

**Respublikadan kənar:**
prof. Stefani Sini (İtaliya)
prof. Maija Burima (Latviya)
dos.dr. Takayuki Yakota Murakami (Yaponiya)
prof. Mikolay Sokolovski (Polşa)
prof. Ramazan Korkmaz (Türkiyə)
prof. Yadiqa Petrusinska (Polşa)
prof. Fatima Festik (Bosniya)

**Poetika.izm (Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri),** Bakı, "Elm və təhsil", 2019 – 146 s.

***Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 04 dekabr 2013-cü il tarixli 7 saylı iclasının qərarı ilə Ədliyyə Nazirliyindən verilmiş 26 noyabr 2013-cü il tarixli, 3821 saylı şəhadətnamə əsasında təsis edilmişdir.***

*Müəllif hüquqları qorunur. Jurnal 2014-cü ildən nəşr olunur.*

© AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, 2019

*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2019, № 1*
*Səhifə: 30-34* *ISSN: 2663-2926*

**UOT:** 821.512.162.09

Eşqanə Babayeva*

# YAQUB QƏDRİ QARAOSMANOĞLUNUN "YAD ADAM" ("YABAN") ROMANINDA YADLAŞMA PROBLEMİ

**Açar sözlər:** yadlaşma, türk romanında yadlaşma, türk ədəbiyyatı, Yaqub Qədri Qaraosmanoğlu, Anadolu, müharibə, konflikt

**Key words:** alienation, alienation in Turkish Novel, Turkish Literature, Yakup Kadri Karaosmanoglu, Anatolia, war, conflict

**Ключевые слова:** отчуждение, отчуждение в турецком романе, турецкая литература, Якуп Кадри Караосманоглу, Анатолия, война, конфликт

XX əsrin əvvəlləri türk romanlarında diqqəti cəlb edən problemlərdən biri də yadlaşmadır. Yadlaşma nəzəri konsepsiyasına fəlsəfi, psixoloji, eləcə də sosioloji aspektdən yanaşmaq mümkündür. Qeyd edək ki, "yadlaşma"nı fəlsəfi qavram olaraq ilk dəfə Vilhelm Fridrix Hegel (1770-1831) istifadə etmişdir. Hegel, bu məsələyə metafizik nöqteyi-nəzərdən yanaşırdı. Hegelə görə yadlaşma, insanın fiziki və ruhi bağlılığı arasındakı fərq nəticəsində ortaya çıxır. Bir sözlə, yadlaşma ruhun öz yaratdığı maddi dünyadan duyğusal mənada uzaqlaşması və yadlaşması nəticəsində yaranır [1, s.113-144].

Yadlaşma problemi, XIX əsrdə Marksist fəlsəfəylə daha çox populyarlıq qazanmışdır. Karl Marks (1818-1883) bu problemi kapitalizm sisteminin tənqidində mərkəzə alaraq, insanın özünə və həyata yadlaşmasının maddi səbəbləri üzərində dayanırdı [2, s.8].

Yadlaşma - müasir ədəbiyyatın da əsas problemlərindən biridir. Fərdin cəmiyyətə, ətrafına, təbiətə və ya özü-özünə yadlaşması türk romanlarının əsas mövzularından birinə çevrilmişdir. Hələ Tənzimat dövründən başlayan qərbləşmə hərəkatı, Şərq və Qərbin arasında qalan, nə tam qərbli, nə də tam şərqli ola bilməyən obrazların cəmiyyətə və daxili məninə yadlaşdığını görürük. Yadlaşma-təkcə xarakterlərarası deyil, nəsillərarası konflikti də ortaya çıxarmış olur. Atalar və oğullar, köhnəlik və müasirlik arasındakı konflikt də burdan qaynaqlanır. Xüsusən psixoloji romanlarda xarakterlərin özlərinə, ətraflarına, hətta təbiətə belə yadlaşdığını beləliklə dərin psixoloji konfliktin ortaya çıxdığını müşahidə edirik.

Bildiyimiz kimi, XX əsrin əvvəllərində ədəbiyyatda diqqəti cəlb edən mövzulardan biri də "kənd" mövzusu idi. Anadolunun dərdini, kədərini ədəbiyyata gətirmək əsas prioritetlərdən birinə çevrilmişdi. Romanlarda Anadolu insanının sevgisindən, duyğularından, bir sözlə taleyindən bəhs edilirdi. Ən maraqlısı bu idi ki, Anadolu insanı öz məsumiyyəti, ülvi sevgisi, cəsurluğu, sadəliyi ilə ifadə olunurdu. Bu yeni istiqamətə "məmləkət ədəbiyyatı" deyilirdi. Həm poeziya, həm də nəsr nümunələrində bu cərəyan özünü göstərirdi. Rəşad Nuri Güntəkin, Sədri Ertem, Xalid Qaray və s. yazıçılar bu mövzuda çox uğurlu əsərlər qələmə almışdılar. Anadolu mövzusuna müraciət edən yazıçılardan biri də Yaqub Qədri Qaraosmanoğlu olmuşdur. Yazıçının "Yaban" ("Yad adam") romanı xüsusi ilə diqqəti cəlb edir. Qeyd edək ki, Yaqub Qədrinin "Yaban" romanı 2006-cı ildə K.Əliyeva tərəfindən Azərbaycan türkcəsinə uyğunlaşdırılaraq "Yad adam" adı altında çap edilmişdir [3].

* Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Filologiya üzrə fəlsəfə doktoru. E-mail: eshqane@mail.ru

Bu romanda qarşılaşdığımız Anadolu, yaradılan kəndli obrazları, toxunulan problemlər, Xalid Qarayın qələmə aldığı "Məmləkət hekayələri"ndəki obrazlardan tamamilə fərqlənirdi. Onu xüsusi ilə vurğulayaq ki, kənd mövzusunun ədəbiyyata gəlməsi, kəndli obrazlarının vəsf edilməsi ilə yanaşı, kənddən şəhərə, və ya şəhərdən kəndə köç problemini də əsərlərin leytmotivinə çevirmiş oldu. Bu əsərdə şəhərdən kəndə köç – uyuşmazlıq sindromu olaraq qarşımıza çıxır. Yeni məkan, yeni mühit obrazın daxili dünyası və ətrafı ilə konflikt yaratmış olur.

"Yad adam" romanı ideya-məzmun baxımından böyük əhəmiyyət kəsb edir. Əsər 1932-ci ildə "Kadr" jurnalında nəşr olunmuşdur. Tədqiqatçı Niyazi Akı öz monoqrafiyasında Yaqub Qədrinin ədəbi şəxsiyyətindən bəhs edərkən, onun yaradıcılığında fransız ədəbiyyatının böyük təsiri olduğunu vurğulayaraq, bu əsərin Emil Zolyanın "Torpaq", Balzakın "Kəndlilər" romanının təsiri altında yazıldığını bildirir [4, s.120] [5, s.78]. Yeri gəlmişkən qeyd edək ki, yazıçılığı ilə yanaşı, ictimai-siyasi xadim olan Yaqub Qədri Cümhuriyyət qurulduqdan sonra, həyatını TBMM-də və xaricdə diplomat kimi keçirmiş, Türkiyənin ictimai-siyasi, ədəbi-mədəni həyatını yaxından izləyərək, bunu əsərlərində əks etdirmişdir. N.Akı bu fakta da nəzər yetirərək Y.Qədrinin romanlarının əksəriyyətində Türkiyə cəmiyyətinin yetmiş illik panaromasının əks olunduğunu, ümumiyyətlə, yazıçının öz əsərlərini fransız realizmi və naturalizminin təsiri altında yazdığını, bu fikrin isə tədqiqatçıların əksəriyyəti tərəfindən təsdiq olunduğunu qeyd edir [4, s.135].

Romandakı hadisələr 1922-ci illərdə yəni, milli mübarizə dövründə Anadoluda, Porsuq çayı kənarında yerləşən balaca bir kənddə cərəyan edir. Roman, gündəlik yazan Əhməd Cəlal adlı bir türk zabitinin xatirələrindən ibarətdir. Ömrünü müharibədə keçirən, vətən uğrunda döyüşən, bir qolunu itirən Əhməd Cəlal ağır yaralanaraq döyüş qabiliyyətini itirir. Daha sonra sadiq əsgəri Məhməd Əlinin israrı ilə ona qoşulub onların kəndinə gedir. Yazıçı göstərir ki, Əhməd Cəlal böyük qürurla Anadolu kəndinə yollanır. Bu vətən torpağında yaralanıb, qolunu qoyduğu üçün fəxr edir. Amma təəssüflər olsun ki, kənd əhalisinin laqeydliyi ilə qarşılaşır. Heç kəsi onun müharibədə iştirak etməsi maraqlandırmır. Hamı öz iş-gücü, əkin-biçini ilə məşğuldur. Onun müharibə xatirələri heç kimi maraqlandırmır. O, kəndliləri başına yığıb, milli mübarizədən, vətən uğrunda müharibədən danışmağa çalışsa da, hər dəfə boş, laqeyd gözlərlə qarşılaşır:

"Heç eşitməmisiniz? Mustafa Kamal adında böyük bir adam, böyük bir komandir vardır. İstanbuldan Anadoluya keçdi. Ərzurum və Sivasda milləti başına topladı. "Hökümət, dövlət öz işini görmür. Biz özümüz-özümüzü qoruyacağıq" – dedi" [6, s.44].

Əhməd Cəlal nə qədər böyük coşquyla, sevgiylə danışsa da, kəndlilər onu anlamaqda acizdirlər. Bu etinasızlıq, laqeydlik onu kəndlilərdən soyudur. Hətta sadiq əsgəri Məhməd Əli belə etinasızlaşmağa başlamışdır. Kənddə qadın-kişi, böyük-balaca hamı ona "yad" deyir. Onu qətiyyən öz aralarına almaq istəmirlər. Hətta Məhməd Əlinin anası Zeynəb belə yeməyi bişirib, qaş-qabaqla onun qarşısına qoyur. Hamı ondan qaçır, heç kəs dərdini onunla bölüşmək istəmir. Onun tək həmdəmi kitablar və gündəlik təəssüratlarını yazdığı xatirə dəftəridir. Əsər boyunca, Əhməd Cəlalın özünə, cəmiyyətə, hətta təbiətə belə yadlaşdığını, tənhalaşdığını görürük. Maraqlı bir detala diqqət yetirək. Əhməd Cəlal yerdən təsadüfən konserv qutusu tapır. Yazıçı maraqlı manevr edərək, qəhrəman və əşya arasındakı paralellikləri göstərir. O, əyilib qutunu götürəndə "sanki köhnə bir tanışı" görmüş kimi olur. Onların arasındakı yaxınlıq ikisinin də bu kəndə aid olmamasında idi. Əhməd Cəlal nə qədər çalışsa da, kəndlilərlə münasibət qura bilmir.

- "Hər ölkənin kəndlisi ilə ziyalısı arasında belə dərin uçurum varmı? Bilmirəm! Fəqət oxumuş bir İstanbul uşağı ilə Anadolu kəndlisi arasındakı fərq londonlu ingilislə, pəncablı hindli arasındakından daha böyükdür" [6, s. 36].

Romanın elə ilk səhifələrindən qəhrəmanın etirafları ilə qarşılaşırıq. Qeyd edək ki, əsər "bir mən" romanıdır. Oxucu, hadisələri ya qəhrəmanın öz dilindən, ya da gündəliyindən öyrənir. Əhməd Cəlal kəndlilərdən "onlar" deyə bəhs edir. Konflikt "mən" və "onlar" arasında qurulur. Roman boyunca qəhrəmanın dilindən onların yəni kəndlilərin laqeyd, odun parçası kimi kobud olduqları dəfələrlə dilə gətirilir. Əhməd Cəlal, onları "səfil", "bayağı", "daş dövründən qalma" və s. kimi

sözlərlə ifadə edir. Onların çirkliliyi, kobudluğu onda ikrah doğurur. Yazıçı göstərir ki, bu kobudluğun, çirkliliyin içərisində gözəl kəndli qızı Əminə tamamilə başqa idi. Onun incəliyi Əhməd Cəlalı təəccübləndirir. Amma Əminə də digərlərindən fərqli olmayaraq, ona "yad", "gəlmə" gözü ilə baxır. Hətta Əhməd Cəlalın evlilik təklifinə "mən, bir yada gedə bilmərəm" sözləri ilə cavab verir.

Yazıçı göstərir ki, həyatını oxuyub-yazmaqla keçirən, fransız dilini incəliklərinə qədər öyrənən Əhməd Cəlal və kəndlilər arasında böyük bir uçurum vardır. Əhməd Cəlal getdikcə, nəinki kəndlilərə, hətta özünə qarşı belə yadlaşmağa başlayır:

"Onlar kimi olmaq, onlar kimi geyinmək, onlar kimi oturub-durmaq, onların diliylə danışmaq.... Deyək ki, bunların hamısını elədim. Bəs onlar kimi necə düşünüm? Onlar kimi necə hiss edim? Otağımı dolduran bütün bu kitabları yandırmaq.... Nəyə yarar? Hamısı mənim içimə girdilər. Məndə silinməz, qaçınılmaz, silinib, təmizlənməz izlər qoydular. Zahiri görünüşüm dəyişib, nə mənası var? Mən, əsilndə mən, bu torpağın malı olmayan mən, kənardan gələn maddələrlə yoğrula-yoğrula kimyəvi tərkibə dönmüşəm" [6, s.86].

Qəhrəman özünü bir kasa suya düşmüş bir damla zeytun yağına bənzədir. Nə qədər çırpınsa da, onlara qarışa bilmir. Həmişə zeytun yağı kimi suyun bir kənarında qalır. Aşağıdakı monoloq da bu baxımdan diqqəti cəlb edir. Əhməd Cəlal kəndlilərlə arasındakı uçurumun, yadlığın səbəbini göstərməyə çalışır:

"Bunun səbəbi türk ziyalısı, yenə də sənsən! Bu viran ölkə və yoxsul insan kütləsi üçün nə etdin? İllərlə qanını əmdin, tullantısını qatı torpaq üstünə atdıqdan sonra indi də gəlib ondan iyrənmək haqqını özündə tapırsan! Anadolu xalqının bir ruhu vardı, nüfuz edə bilmədin. Bir başı vardı, aydınlada bilmədin. Bir vücudu vardı, bəsləyə bilmədin. Üstündə yaşadığı bir torpağı vardı! İşlədə bilmədin, onu heyvani duyğuların, cəhalətin, yoxsulluğun və qıtlığın əlində qoydun. O, qatı torpaqla quru göyün arasında yabanı ot kimi bitdi. İndi əlində oraq gəlmisən, nə əkdin ki, nə də biçəsən" [6, s.130].

Verdiyimiz hər iki nümunədə təkcə ətrafına deyil, hətta öz daxili məninə də yadlaşan, bunun əsl səbəbini isə özündə görən türk ziyalısının faciəsini görürük.

Qeyd edək ki, bu əsərlə bağlı müxtəlif tənqidi fikirlər də vardır. Bir sıra alimlər əsəri yüksək qiymətləndirmiş, bir qisim isə Anadolu kəndlisinin xor görüldüyünü, təhqir edildiyini irəli sürərək, əsəri kəskin şəkildə tənqid etmişdir. Berna Moran "heç bir romanda insanları təsvir etmək üçün bu qədər heyvanlarla bənzətmə aparılmamışdır" [7, s.211-21], – deyərək bu məsələyə kəskin etirazını bildirir. N.S.Banarlı da roman haqqında yazır: ""Yaban" əsasən dərin yaramıza toxunan və toxunduğu üçün də xeyirxah bir iş görən romanlarımızdandır. Fəqət bu yaraya toxunuş elə sərt, elə qabadır ki, əsəri oxuyan istər-istəməz yazıçının türk kəndlisinə qarşı bir qədər zalım davrandığını düşünmək məcburiyyətindədir. Əsərdə vəhşi deyiləcək qədər ibtidai, insani həyat şərtlərindən, insani zövq və duyğularından uzaq, xüsusən də şəhərliyə qarşı düşmənlik duyğularıyla dolu olan bir kəndlinin həyatı vardır [8, s.1203]. Görkəmli tədqiqatçı Ş.Aktaş isə bu fikir və mülahizələrlə razılaşmayaraq qeyd edir ki, "Yad adam" romanını birtərəfli oxumaq oxucunu aldadır. Yaqub Qədrini oxucuya Anadolu kəndini həcv edən bir yazıçı kimi tanıdır. Halbuki, bu əsəri, Y.Qədrinin digər romanları ilə birlikdə, bir bütün olaraq ələ almaq lazımdır. "Kirayə ev", "Nur baba", "Hökm gecəsi", "Sodom və Qomore" və "Yad adam" ideya baxımından bir-birlərini tamamlayırlar [5, s.80].

Ş.Aktaşın fikir və mülahizələri ilə razılaşaraq, ilk öncə Yaqub Qədrinin siyasi idealogiyasını, "Kadro" ədəbi hərəkatındakı fəaliyyətini nəzərə aldıqda, onun bütün əsərlərində öz içərisindən çürüyən bir cəmiyyətin problemlərinin əks olunduğu qənaətinə gəlirik. Bu əslində, XX əsrin əvvəllərində çökməyə başlayan Osmanlı imperiyasının tablosu idi. Onu da qeyd edək ki, əsər haqqındakı fikir və mülahizələr əsasən Əhməd Cəlalın daxili aləminə yönəldiyi üçün, dövlətin ictimai-siyasi həyatındakı çöküntünün kəndlərdə yaratdığı sıxıntılara, ümidsizliyə o qədər də diqqət yetirilmir. Roman boyunca müşahidə olunan kəndlilərin tənqidi isə əslində ziyalı-cəhalət konfliktini

ortaya çıxarıb, eyni dildə danışan bu insanlar arasındakı doğmalıq-yadlıq problemini ortaya qoyur. Kəndə gələn ziyalı, ətrafına və özünə yadlaşır. Kəndlilər özü də bu, yeni gələn insana yadlaşır, onu "yad" adlandırır, hətta qadınlar, o bir "yad" olduğu üçün üzlərini ondan gizlədirlər. Yəni yadlıq duyğusunu həm Əhməd Cəlal, həm də kəndlilər yaşayır. Eyni dili danışıb, eyni torpaq üzərində yaşasalar da hər ikisi bir-birinə yaddır. Əhməd Cəlal doğma diyarında özünü Robinzon Kruzoya bənzədir, onu qurtaracaq əsrarəngiz gəmini gözləyir. Əslində bu gəmi Anadolu ordusudur. Əhməd Cəlal getdikcə özündən uzaqlaşır, bütün meyarlar bir-birinə qarışır. Ədəbi qəhrəmanın daxili konflikti bu baxımdan maraq doğurur:

-"Hara gedim? Mənin yerim haradır? Kimə gedim? Məni kim başa düşər? Məni bu illətdən, bu qürbətdən kim qurtara bilər? Hansı qardaşım? Hansı bacım? Hansı can yoldaşım? Hey ana torpaq, sən necə də məhhəmətsiz, sərtsən? Mənim iztirablarıma necə də yadsan? Mən sənin ögey övladınam? Yoxsa sən mənim ögey anamsan? Əgər mən sənin ögey övladınamsa bu qolu kimin uğrunda fəda etdim?" [6, s.86].

Əsərə milli mücadilə dövrünün romanı kimi baxsaq, qarşımızı Anadolu kəndlisini maarifləndirmək istəyən, vətən uğrunda qolunu itirən bir türk ziyalısı ilə, müharibələrdən bezən, yalnız gündəlik çörək pulunu qazanmaq üçün çırpınan, bir qarın çörəkdən başqa heç bir şey düşünməyən laqeydləşmiş kəndli obrazı ortaya çıxmış olur. Əsərə başqa nöqteyi-nəzərdən baxsaq, bədbin, müxtəlif səbəblərdən xalqından qopmuş, onun iç dünyasından xəbərsiz, özünə və ətrafına yadlaşan bir ziyalı görürük. Kəndlilərin qarşısında isə nə həyat, nə də düşüncə tərzi ilə onlara bənzəməyən, onlardan biri kimi olmayan, hər gün dişlərini fırçalayan, kitab oxuyan, bir "gəlmə" vardır.

Professor M.Narlı, öz araşdırmasında "Yaban" romanına da toxunaraq, qeyd edir ki, "Mərkəz (şəhər) ilə kəndin təəssüf doğurucu qarşılaşmasında "Yad adam"ın bir digər xüsusiyyəti də, özündən əvvəlki əsərlərdə işlənən Anadolu romantizminin sona çatdırılmasıdır. Artıq Anadolu, saf, təmiz təbiəti, ülvi eşqi və məsum insanları olan sığınacaq, zəngin təxəyyül aləmi deyildir" [9, s.297].

Əsərdən də gördüyümüz kimi, burada Anadolu, milli mübarizə illərində bütün sivilizasiyalardan kənarda qalmış bir kənd kimi təsvir edilir. Xalqı maarifləndirməyi özünə borc bilən Əhməd Cəlalın xəyalında yaratdığı məsum və cəsur Anadolu insanı ilə kənd reallıqları öz təsdiqini tapmır. Əhməd Cəlal bu ziddiyyətlərin arasında çırpınan, nəticədə isə yadlaşan tipik ziyalı obrazıdır.

Oqtay Akbal Yaqub Qədrinin bu romanına nəzər yetirərək "Cümhuriyyət" qəzetində yazır ki, Y.Qədri bu əsəri ilə əslində nağıllar aləmi kimi təsvir edilən kənd ədəbiyyatını yıxmışdır. Eybəcər bir təbiət, çirkli bir ətraf, şil-şikəst insanlar, cəhalət və kor inanc sisteminin verdiyi bir həyat tərzi... Əks edilən tablonun rəngləri bunlardır [10]. Məsələnin ən ağrılı tərəfi isə bütün bunların türk ziyalısının "öz əsəri" olmasıdır. Türk aydını Anadolu xalqını bu cəhalətin içərisində buraxmışdır. Oxucunu düşündürən Əhməd Cəlalın monoloji nitqindəki "nə əkdin ki, nə də biçəsən" fəryadıdır.

Yazıçı, ziyalı və kəndli arasındakı uçurumu göstərməyə çalışır. Türkiyəli tənqidçi Berna Moran əsər haqqında tənqidi fikirlərini dilə gətirdikdən sonra onun müsbət məziyyətləri üzərində də duraraq yazır:

"Aydın ilə kəndli arasındakı uçurumu səmimiyyətlə dilə gətirmiş, bu yaranı cəsarətlə deşmiş və Anadolu kəndlisinə aid həqiqətləri bütün çılpaqlığı ilə gözümüzün önünə sərmişdir" [7, s.201].

Berna Moranın da qeyd etdiyi kimi, "Yaban" romanını digər kənd mövzulu əsərlərdən ayıran nüans da elə bu idi.

Ümumiyyətlə, yazıçının təkcə "Yaban" əsərində deyil, "Kirayə ev" (Kiralık konak), "Ankara", "Hökm gecəsi" və s. romanlarında da bu problem diqqət mərkəzinə alınır. Əsərdə yeniləşmə hərəkatı ilə ayaqlaşmağa çalışan türk cəmiyyətinin problemləri dilə gətirilir. Yazıçı göstərir ki, yaratdığı xarakterlərin, sürətlə inkişaf edən dünya və cəmiyyətlə mənfi və ya müsbət mənada ayaqlaşa bilməməsi yadlıq problemini ortaya çıxarır. Belə ki, "Kirayə ev" romanının Sənihası, Faiq bəyi, Haqqı Cəlisi, Naim əfəndisi, "Ankara" romanının Səlması, Haqqı bəyi, "Bir sürgün" romanının Doktor Hikməti, "Hökm gecəsi"nin Əhməd Kərimi, Əhməd Səmimi, "Panorama I" və

"Panorama II" romanlarının əsas qəhrəmanları olan Neşat Sabiti, Fuadı, "Həp o şərqi"nin Minurəsi, eləcə də yuxarıda bəhs etdiyimiz "Yaban" romanının Əhməd Cəlalı cəmiyyət içərisində yadlaşan obrazlardır. "Kirayə ev" romanının qəhrəmanı Səniha Tənzimat dövrünün ortaya çıxardığı alafranga xarakter olsa da, əslində yazıçı "müasirləşərək" milli kimliyindən uzaqlaşan, özünə, ailəsinə, ətrafına yadlaşan yeni nəslin simvolik obrazını yaratmış olur [11]. Yeniləşmə, qərbləşmə, milli-mənəvi dəyərlərdən uzaqlaşma obrazın özünə və ətrafına yadlaşmasına gətirib çıxarır.

Yaqub Qədri Qaraosmanoğlunun "Yad adam" əsərini tədqiq etdikdə, yadlaşmanın əslində ziyalı-kəndli arasındakı uçurumdan qaynaqlandığı qənaətinə gəlirik. Əsərdəki bədii konflikt iki zidd qütb arasında qurulmuşdur: İnkişaf edən dünyada, Qərbə açılan türk ziyalısı və bütün sivilizasiyalardan kənarda qalmış Anadolu kəndlisi. Yazıçı, bu əsəri müstəvisində əslində çox önəmli bir məsələni ortaya çıxararaq, oxucunu düşünməyə sövq edir. Yaqub Qədrinin digər əsərlərində olduğu kimi, bu əsərdə də ziyalı və kəndlilər arasındakı doğmalıq-yadlıq əslində türk cəmiyyətinin ziyalı-cəhalət qarşıdurmasını özündə əks etdirir.

**ƏDƏBİYYAT**


1. Ofluoğlu G., Büyükyılmaz O. Yabancılaşmanın Teorik Gelişimi ve Tarihsel Süreç İçinde Farklı Alanlarda Görünümleri. Kamu-İş İş Hukuku ve İktisat dergisi, sayı: 10 (1), Ankara, 2008.
2. Güven Ç., Edebiyat-Felsefe ilişkisi bağlamında türk romanında yabancılaşma problemi, Yüksek Lisans Tezi, İsparta, 2018.
3. Qaraosmanoğlu Y.Q. Yad adam [Mətn] roman, tərc.ed. K.Əliyeva. Bakı, "Nurlan", 2006.
4. Akı N. Yakup Kadri Karaosmanoğlu, İnsan-Eser-Fikir-Üslûp, İstanbul: İletişim Yayınları, 2001.
5. Aktaş Ş. Yakup Kadri Karaosmanoğlu, Ankara: Kültür ve Turizm bakanlığı yayınları, 1987.
6. Karaosmanoğlu Y.K. Yaban, İstanbul: Remzi kitabevi, 1942.
7. Moran B. Türk Romanına eleştirel bir bakış, İstanbul: İletişim yayınları, 2007.
8. Banarlı N.S. Resimli Türk Edebiyatı Tarihi, 2 ciltlik, c.II, İstanbul: MEB Yay., 1998.
9. Narlı M. Romanlar ve Taşralar Türk Romanında Taşra Algıları Üzerine Bir Değerlendirme// Bilig dergisi, Sayı 64/ kış, Ankara, 2013.
10. Oktay A. Yaban// Cumhuriyet gazetesi//, İstanbul, 12 Mart, 1977.
11. Karaosmanoğlu Y.K. Kiralık Konak, İstanbul: İletişim Yayınları, 2008.


**THE PROBLEM OF ALIENATION IN YAKUP KADRI KARAOSMANOGLU'S "STRANGER" ("YABAN") NOVEL**

**SUMMARY**


Alienation is a popular concept which is searched its influences and causes in may fields such as philosophy, psychology and sociology are searched. Alienation has become one of the most basic motives in literatures too. In this article, the problem of alienation in Yakub Kadri's "Stranger" ("Yaban") novel will be investigated.

Yakup Kadri's "Stranger" novel is an expression of the intellectual-public gap in Turkey that manifests itself today. Novel is a realistic story, where the gap between the Turkish intellectuals and the Turkish peasants is expressed.


**ПРОБЛЕМА ОТЧУЖДЕНИЯ В РОМАНЕ ЯКУБА КАДРИ КАРАОСМАНОГЛУ «ЧУЖАК» («ЯБАН»)**

**РЕЗЮМЕ**


Отчуждение является популярной концепцией, в рамках которой исследуются многие области влияния и причины, такие как философия, психология и социология. Отчуждение стало одним из основных мотивов и в литературе. В этой статье будет исследована проблема отчуждения в романе «Ябан» Якуба Кадри.

Роман Якоба Кадри "Ябан" является выражением интеллектуально-общественного разрыва в Турции, который проявляется сегодня. В основе исследуемого романа лежит реалистичная история, где выражается разрыв между турецкой интеллигенцией и турецкими крестьянами.

## BƏLƏDÇİ

### ***ƏDƏBİ TƏHLİL. MƏTN POETİKASI***

**Наиля Мурадалиева.** Пейзажная метафоризация в поэмах Самеда Вургуна........... 3
**Fəridə Vəliyeva.** Qazi Bürhanəddin lirikasında qiymətli daşların semantikası………….. 10
**Ülkər Zakirqızı (Məmmədova).** Şərq poetikası işığında Eynəlqüzat Miyanəcinin şeirlərinə nəzər........................................................................................................ 17
**Günay Qarayeva.** Bədii obrazda poetik kateqoriyaların funksionallığı......................... 24
**Eşqanə Babayeva.** Yaqub Qədri Qaraosmanoğlunun "Yad adam" ("Yaban") romanında yadlaşma problemi........................................................................................................ 30
**Ülviyyə Rəhimova.** Təhkiyədə dialoq və bədii detal..................................................... 35
**Elmira Babayeva.** Mövlud Süleymanlı nəsrinin poetikası............................................... 40
**Gülnar Rzayeva.** Amerika tənqidi və ədəbiyyatşünaslığı Keruak yaradıcılığı haqqında... 46

### ***JANR, STRUKTURA, FORMA***

**Elmira Məmmədova-Kekeç.** Vücudnamə yaradıcılığında formullar mətnlərarası əlaqənin elementi kimi........................................................................................................ 53
**Gülbəniz Babayeva.** "Molla Nəsrəddin" jurnalında işlədilən klassik şeir şəkilləri........... 60
**Təhminə Bədəlova.** Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində dramatik ünsürlər... 69
**Mehri Quliyeva.** Yusif Vəzir Çəmənzəminlinin hekayələrində tragikomik situasiya və obrazlar........................................................................................................ 73

### ***İZM***

**Təyyar Salamoğlu.** İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" əsəri maarifçi realizmin estetikası kontekstində........................................................................ 78
**Sevinc Kazımova.** Postmodernist nəsrdə "İkinci məzmun": Lirik ricətlər və psixoloji açılışlar (Kamal Abdullanın "Unutmağa kimsə yox..." romanı əsasında).......................... 86
**Şəfa Əliyeva.** Tənqidi realist dramaturgiyada yad dildə dialoqların semantikası............... 94
**Dilarə Əliyeva.** Anar yaradıcılığı ekzistensializm kontekstində....................................... 100

### ***İNTERTEKSTUALLIQ VƏ MULTİDİSPLİNAR ƏLAQƏLƏR***

**Фарида Азизова.** Полифункциональность средневековой прозы............................ 104
**Maral Yaqubova.** Kvant fizikası və ədəbiyyat................................................................ 110
**Ətrabə Gül.** Güllərin simvolikası intertekstuallıq müstəvisində (Molla Pənah Vaqifin yaradıcılığı əsasında)........................................................................................................ 123
**Məleykə Məmmədova.** Azərbaycan və Anadolu folklorunda nağıl və oyun təkərləmələr 128
**Ülkər Yusifova.** Rituallarda musiqi alətinin rolu............................................................ 141